# Hacı İsmayılov "Şöhrət" ordeni ilə təltif edilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xalq artisti Hacı İsmayılovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir:

"Azərbaycan teatr və kino sənətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan teatr və kino sənətinin inkişafında xidmətlərinə görə Hacı Məcid oğlu İsmayılov "Şöhrət" ordeni ilə təltif edilsin".

Hacı İsmayılov 22 yanvar 1944-cü ildə Bakıda doğulub. 190 nömrəli orta məktəbdə təhsil alıb. 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olub. 1968-ci il-də Sumqayıt Dövlət Dram Teatrında aktyor kimi fəaliyyətə başlayıb. Bu teatrda M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəlişah" komediyasında dərviş Məstəlişah rolunu ifa edib. Bundan sonra C.Patrikin "Qəribə missis Səvic" dramında Ceffi, C.Cabbarlının "Sevil" pyesinin tamaşasında Məmmədəli bəy rolunda çıxış edib.

1970-ci ildən Akademik Milli Dram Teatrında çalışır. Elə ilk gündən H.Cavidin "Xəyyam" faciəsindəki İkinci Qulam rolunu alıb. Teatrda Muradalı ("Xurşidbanu Natəvan" İlyas Əfəndiyev), Fariz ("Büllur sarayda" İlyas Əfəndiyev), Ağadadaş Nəcəfov ("Dəlilər və ağıllılar", İlyas Əfəndiyev), Kişi ("Şöhrət və ya unudulan adam", Nazim Hikmət), Səmərqəndli ("Məhəbbət əfsanəsi", Nazim Hikmət), Lakey və Novruz bəy ("Aydın", Cəfər Cabbarlı), Məmmədəli bəy ("Sevil", Cəfər Cabbarlı), Sönməz ("Od gəlini", Cəfər Cabbarlı), Fransisko ("Fırtına", Uilyam Şekspir), Həkim ("Maqbet", Uilyam Şekspir), Qraf Kent ("Kral Lir", Uilyam Şekspir), Yaralı zabit ("İblis", Hüseyn Cavid), Mehdiqulu ("Ah, Paris Paris!..", Elçin), Məsul katib ("Mənim sevimli dəlim", Elçin), Qonşu ("Mənim ərim dəlidir", Elçin), Yan Çinq ("Özümüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə), İbn Zeyd ("Dar ağacı", Bəxtiyar Vahabzadə), Şükür bəy ("İkinci səs", Bəxtiyar Vahabzadə), Qoşqar Kəngərli ("Bu dünyanın adamları", Hidayət Orucov), Mirzə Ələkbər Sabir ("Hərənin öz payı", Xeyrəddin Qoca), Hacı Həsən ("Ölülər", Cəlil Məmmədquluzadə), Məşədi İslam ("Dirilən adam", Mir Cəlal), Məhkəmə sədri ("Uçqun", Tuncer Cücenoğlu), Timote ("Xanuma", Avksentiya Saqarelli), Pera ("Nazirin xanımı", Branislav Nuşiç), Tahir ("Mənim günahım", İlyas Əfəndiyev), Vağzal məmuru ("21:15 qatarı", Toyqun Orbay), Mirzə Hüseyn müəllim ("Ölülər", Cəlil Məmmədquluzadə), Aftil ("Almaz", Cəfər Cabbarlı) kimi obrazlar yaradıb.

"Azərbaycanfilm" kinostudiyasında ilk dəfə "Ad günü" filmində Mustafa rolunda çəkilib. Bu rol ona böyük uğur qazandırıb və Respublikanın Dövlət mükafatı laureatı adına layiq görülüb (1980).

"Yaşıl eynəkli adam" teletamaşasında Qafar obrazı ilə aktyor daha da məşhurlaşıb.

"Ad günü" (rejissor Rasim Ocaqov), "Bəyin oğurlanması" (rejissorlar Ceyhun Mirzəyev və Vaqif Mustafayev), "Yol əhvalatı" (rejissor Teymur Bəkirzadə), "Həm ziyarət, həm ticarət" (rejissor Rasim Ocaqov), "Ordanburdan" (rejissor Ramiz Həsənoğlu), "Nekroloq" (rejissor Ramiz Həsənoğlu), "Fəryad" (Ceyhun Mirzəyev) və başqa filmlərdə canlandırdığı obrazlarla tamaşaçıların rəğbətini qazanıb.



17 may 1989-cu ildə Azərbaycan SSR-nin əməkdar artisti, 18 dekabr 2000-ci ildə Azərbaycan Respublikasının xalq artisti fəxri adları ilə təltif olunub. Prezident təqaüdçüsüdür. Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi Sənətkar ordeninə layiq görülüb. 2014-cü ildən Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq üzrə sədr müavinidir.

*"Kaspi" qəzetinin "Teatr" əlavəsinin kollektivi adından sənətkarı 75 yaşının yamam olması və "Şöhrət" ordeninə layiq görülməsi münasibəti ilə təbrik edir, uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.*

